AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# KENQURU RİYAZİYYAT
## AZƏRBAYCAN 2022

AD : ______________________

SOYAD : ______________________

ATA ADI : ______________________

MƏKTƏB : ______________________

**5 - 6 - cı siniflər**

**Azərbaycan bölməsi**

İmtahan müddəti 90 dəqiqədir.
Səhv cavablar düzgün cavablara təsir etmir.
Müsabiqənin nəticələrini www.ttm.edu.az saytından öyrənə bilərsiniz.

*3 ballıq suallar*

1. Konfetlər qutularda, hər birində 5, 10 və ya 25 konfet olmaqla satılır. Nicat 95 ədəd konfet alır. O, ən az neçə qutu konfet alır?

A) 4 B) 5 C) 7 D) 8 E) 10

2. ABCD tərəfi 10 sm olan kvadratdır. Ştrixlənmiş hissənin sahəsi neçə $sm^2$-dir?




A) 40 B) 45 C) 50 D) 55 E) 60

3. Elnur 5 ədəd konusun ətrafında dövr etdi. O, hansı konusların ətrafında saat istiqamətinin əksinə dövr etdi?




A) 1 və 4 B) 2, 3 və 5 C) 2 və 3 D) 1, 4 və 5 E) 1 və 3

4. Göstərilən qarajda nəqliyyat vasitələri sadəcə önə və arxaya hərəkət edə bilirlər və başqa istiqamətdə dönə bilməzlər. Mavi maşının çıxa bilməsi üçün ən az neçə nəqliyyat vasitəsi hərəkət etdirilməlidir?



A) 2 B) 3 C) 4 D) 5 E) 6

**5.** Sinifdə şagirdlər sıralar üzrə oturublar. Hər sırada eyni sayda şagird var. Rasimin qarşısında 2 sıra şagird, arxasında 1 sıra şagird, solunda 3 şagird, sağında 5 şagird var. Sinifdə neçə şagird var?

A) 10 B) 17 C) 18 D) 27 E) 36

6. Sistersian ədədlər 13-cü əsrin əvvəllərində istifadə edilirdi. 1-dən 99-a qədər olan istənilən tam ədəd verilmiş simvolların birləşməsi şəklində göstərilə bilir.




Məsələn 24  , 81  , 93  formasında göstərilir. 45 hansı formada göstərilməlidir?

A)  B)  C)  D)  E) 

7. Güzgü lazer şüasını şəkildə göstərildiyi kimi əks etdirir. Buna əsasən, lazer şüası hansı hərfə çatacaq?




A) A B) B C) C D) D E) E

8. Nihad 7 parçanı elə yerləşdirir ki, mümkün olan ən kiçik 12-rəqəmli ədəd alınsın. Bu ədədin son 3 rəqəmi hansıdır?

4 69 113 9 51 5 67

A) 699 B) 113 C) 551 D) 967 E) 459

9. Lalənin bir ədəd uzun spagetti çubuğu var. O, hər dəfə bir hissəni şəkildə göstərildiyi kimi üç hissəyə bölə bilər. Verilənlərdən hansı Lalənin sahib olacağı hissələrin sayı ola bilməz?



A) 13 B) 17 C) 20 D) 23 E) 25

10. Şəkildə altı ədəd nöqtə verilib. Bu nöqtələrin köməyi ilə iki üçbucaq qurulur. Onlardan biri tək rəqəmli nöqtələrin, ikincisi isə cüt rəqəmli nöqtələrin birləşməsindən alınır. Buna görə, verilən fiqurlardan hansı alınmalıdır?




A) 

B) 

C) 

D) 

E) 

### *4 ballıq suallar*

11. Klara, 12-dən başlayaraq oxlar üzrə verilmiş qayda ilə hərəkət edir. O, sonda hansı nəticəni alacaq?




A) 3 B) 6 C) 12 D) 24 E) 48

12. Cəmil, yeddi ədəd 3, 4, 5, 6, 7, 8 və 9 ədədlərini verilən dairələrə elə yazır ki, hər bir düz xətt üzərində olan ədədlərin cəmi eynidir. Bir xətt üzərində olan ədədlərin cəmi ən çox neçə ola bilər?



A) 28 B) 18 C) 22 D) 16 E) 20

13. 2022-ci il özəl bir ildir, çünki bu ildə 2 rəqəmi üç dəfə təkrar olur. Tısbağa Eva üçüncü dəfədir ki, ömrü boyu belə bir ildə yaşayır. 2022-ci ildə Evanın ən az neçə yaşı tamam ola bilər?

A) 18 B) 20 C) 22 D) 23 E) 134

14. Nurayın 4 iti var. İtlərdən hər biri tam ədəd ifadə edən çəkidədirlər. İtlərdən heç birinin çəkiləri eyni deyil. Onların ümumi çəkisi 60 kq-dır. İkinci ən ağır it 28 kq-dır. Üçüncü ən ağır it neçə kq-dır?

A) 2 B) 3 C) 4 D) 5 E) 6

15. Kvadratın sahəsi 100 $sm^2$-dir. Rənglənmiş hissənin sahəsi neçə $sm^2$-dir?




A) 20 B) 25 C) 30 D) 35 E) 40

16. Şəkildə, üzərində fiqurlar olan şəffaf kağız göstərilib. Kağız, göstərildiyi kimi iki dəfə qatlanarsa, alınan şəkil necə olacaq?



A) 

B) 

C) 

D) 

E) 

17. Məsud və dostları 66 kubdan istifadə edərək 2022 ədədini düzəltdilər. Daha sonra isə, onlar fiqurun bütöv səthini rənglədilər. Fiqurdakı kublardan neçəsinin tam olaraq 4 tərəfi rənglənmiş oldu?



A) 16 B) 30 C) 46 D) 54 E) 60

18. Hər sırada, hər sütunda və bir-biri ilə əlaqələndirilmiş dörd dairədə 1, 2, 3, 4 ədədlərinin hər biri bir dəfə yazılmalıdır. Sual işarəsinin yerində hansı ədəd olacaq?




A) 1 B) 2 C) 3

D) 4 E) tapmaq mümkün deyil

19. Beş böyük və dörd balaca fil yol ilə hərəkət edirlər. Yol ayrıcına çatdıqda, hər bir fil sola və ya sağa dönür. Buna görə, bütün fillər yol ayrıcını keçdikdə hansı situasiya alına bilməz?




A)


B)


C)


D)


E)

20. Düzbucaqlı prizma formasında olan su çəninin ölçüləri 1m x 2m x 4m-dir. Çəndə soldakı şəkildə göstərildiyi kimi 25 sm hündürlüyündə su var. Əgər çən 1m x 2m olan tərəfi üzərində dayanarsa, suyun hündürlüyü nə qədər olar?




A) 25 sm B) 50 sm C) 75 sm D) 1 m E) 1.25 m

**5 ballıq**

21. Stəkanlar şəkildəki kimi bir-birinin üzərinə yığılıb. 8 stəkanın hündürlüyü 42 sm, 2 stəkanın hündürlüyü 18 sm-dir. 6 stəkanın hündürlüyü neçə sm-dir?



A) 22 B) 24 C) 28 D) 34 E) 40

22. Verilən şəkildə hər bir heyvan fərqli rəqəmi ifadə edir. Eyni heyvanlar eyni rəqəmi, fərqli heyvanlar fərqli rəqəmi ifadə edir. Sütunlarda olan iki rəqəmin cəmi həmin sütunun altında verilib. Birinci sətirdə olan rəqəmlərin cəmi ən çox neçə ola bilər?




A) 18 B) 19 C) 20 D) 21 E) 22

23. Verilmiş beş köməkdən istifadə edərək şifrəni tapın.




Rəqəmlərdən biri düzdür və öz yerindədir.




Rəqəmlərdən biri düzdür, lakin yeri səhvdir.




Rəqəmlərdən ikisi düzdür, lakin yerləri səhvdir.




Bütün rəqəmlər səhvdir.




Rəqəmlərdən biri düzdür, lakin yeri səhvdir.

A) 604 B) 082 C) 640 D) 042 E) 046

**24.** Parkda 5 ağac və 3 yol var. Hər bir yeni ağac parkda elə əkilir ki, hər bir yolun hər iki tərəfində də eyni sayda ağac olsun. Bu qaydaya görə, yeni bir ağac hansı hissədə əkilməlidir?




A) A B) B C) C D) D E) E

25. Vahid, 2, 3, 4, 5, 6 ədədlərindən dördünü elə seçir və qutulara yazır ki, hesablama düz olsun.

Vahid, verilən ədədlərdən neçəsini rənglənmiş xanaya yaza bilər?



A) 1 B) 2 C) 3 D) 4 E) 5

26. 3, 4, 5, 6, 7 ədədləri boş dairələrə elə yerləşdirilir ki, hər bir üçbucağın daxilində olan ədəd həmin üçbucağın təpə nöqtələrindəki ədədlərin hasilinə bərabər olsun. Rənglənmiş üçbucağın təpə nöqtələrindəki ədədlərin cəmi neçədir?




A) 12 B) 14 C) 15 D) 17 E) 18

27. Verilmiş variantlardan hansını qatladığımız zaman  fiqur alına bilməz?

A) 

B) 

C) 

D) 

E) 

28. Yolun üzərində ardıcıl olaraq A, B, C, D kəndləri var. Qonşu kəndlər arasında məsafə 10 km-dir. A kəndində 10 şagird, B kəndində 20, C kəndində 30, D kəndində 40 şagird yaşayır. Kənd sakinləri məktəbi elə yerdə tikmək istəyirlər ki, şagirdlərin gedəcəyi ümumi yol mümkün qədər az olsun. Onlar məktəbi harda tikməlidirlər?

A) A kəndində B) B kəndində C) B və C arasında

D) C kəndində E) D kəndində

29. Kublardan düzəldilmiş fiqurun sırası ilə üstdən, öndən və sağ tərəfdən görünüşləri verilib. Bu fiquru düzəltmək üçün ən çox neçə kub istifadə edilə bilər?




A) 18 B) 19 C) 20 D) 21 E) 22

30. Dairəvi masa ətrafında 30 nəfər əyləşib. Onlardan bəziləri papaq taxıb. Papaq taxmayanlar mütləq şəkildə doğru danışmalıdırlar. Papaq taxanlar isə həm doğru, həm də yalan danışa bilərlər. Onların hamısı, “mənim iki qonşumdan ən az biri papaq taxır” deyir. 30 nəfərdən ən çox neçəsi papaq taxmır?

A) 5 B) 10 C) 15 D) 20 E) 25